**Əliyev S**. Barıt qoxulu, sevgi ünvanlı şeirlər // Xalq qəzeti. - 2023. - 14 sentyabr. - **№ 198**. - S. 9.

**Vətən müharibəsində şəhid olan soydaşlarımızdan biri də Bakının Zabrat qəsəbəsindən cəbhəyə yollanmış Saleh Namiq oğlu Əliyevdir. Cəmi 28 il yaşadı, heç özünə təxəllüs də seçməmişdi. Amma tale ona təxəllüs olaraq müqəddəs Şəhid adını bəxş etdi.**

Əslən Füzuli rayonundan olan Saleh 1998-ci ildə Zabrat qəsəbəsində 71 saylı tam orta məktəbdə 1-ci sinfə gedib. Məktəbi bitirdikdən sonra Bakı İdarəetməvəTexnologiya kollecinə qəbul olunub. Orta ixtisas təhsili aldıqdan sonra isəbir müddət istehsalatda çalışıb. 2014–2016-cı illərdə Milli Ordu sıralarında həqiqi hərbi xidmətdə olan Saleh vətənpərvərlik mövzusunda şeirlər yazaraq dostları üçün oxuyub. Əsas mövzularından biri dəVətənin ərazi bütövlüyü, əzəli torpaqlarımızın düşmən tapdağından azad edilməsi olub. Əsgərlikdən sonra Salehin poetik duyğu vədüşüncələri həm dəsaf məhəbbətə, sədaqətəköklənib.

O, ürək edib şeirlərini redaksiyalara göndərməsədə, dostları arasında şair kimi tanınıb. Arabir məclislərdəonların xahişi iləbəzi poetik nümunələrini səsləndirib. Bəlkədəhaçansa ilk şeirlər kitabının çap olunmasını arzu edirdi. Amma...

2020-ci ilin iyul ayında Saleh Əliyev Azərbaycan Ordusunun generalı Polad Həşimovun şəhadətindən sonra, ailəsindən xəbərsiz, dostları ilə birlikdə ön xətdə döyüşmək üçün könüllü olaraq qeydiyyatdan keçib. Sentyabrın 21-də təlimə çağrılıb vəbir həftəsonra – düşmənəqarşı “Zəfər Yürüşü” adlanan əks-hücum əməliyyatları başlananda cəbhəyə gedib.

Qanlı-qadalı oktyabr ayının 15-də günorta Saleh imkan taparaq anasına zəng edib: “Hər şey yaxşıdır, inşaallah, qələbə bizimdir! Özünüzdən muğayat olun. Axşam vaxtım olsa, yenəzəng edərəm”, – deyib. Təəssüf ki, elə həmin gün axşam saatlarında Füzuli istiqamətində döyüşlər qızışıb vəböyük şücaət göstərən Saleh şəhidlik zirvəsinəucalıb.

Şəhadətindən sonra “Vətən uğrunda”, “Xocavəndin azad olunmasına görə” medalları ilə təltif olunub. Onun dəftərçəsindən səngərdəyazdığı şeirləri tapılıb. Bəzisi barıt qoxulu, bəzisi ana nisgilli, bəzisi dəyar həsrətli şeirlər...

Saleh Əliyevin bir şeirini təqdim edirik:

### *POST ƏSGƏRİ*

***Anacan, darıxma sən oğlun qədər,***
***O, postda dayanıb, yurdu qoruyur –***
***əlində avtomat səhərə qədər.***
***Dualar elə ki, oğlun qayıtsın.***
***O, postda durub ki,***
***El rahat yatsın…***
***Ana gözləri yolda, tək oturub otaqda,***

*Oğlu isə səngərdə, düşmənlə üz-üzədir...*
*Oğul narahatdır ki, yaralansa, ya ölsə,*
*Xəbər qanad açıb anaya çatar...*
*Ana narahatdır ki, oğlu soyuq gecədə*
*Daş, torpaq üstə yatar...*
*Gözlərindən qaçaq düşər yuxular,*
*Səhərəcən ürəyindəqorxular...*
*Belə açılar səhər, belə keçər gecələr,*
*Ana oğlunu gözlər,*
*Oğul ananı özlər...*